# İSLAMİ BAYRAMLAR

**MÜƏLLİF: NASİR BAQİRİ BİDHİNİ**
**TƏRCÜMƏ EDƏN: DAVUD BƏHLULİ**

**Kitabın adı:.........Qədir-xum və sairə İslami bayramlar**
**Müəllif:..............................................Nasir Baqiri Bidhini**
**Tərcümə edən:............................................Davud Bəhluli**

**Bu kitabça cənab Seyyid Sadiq Dehsorxinin rəhbərliyi altında çap olunmuşdur.**

MEHRİBAN VƏ BAĞIŞLAYAN ALLAHIN ADI İLƏ

# ÖN SÖZ

Aləmlərin rəbbi olan Allaha həmd olsun. Sonsuz salamlar haqq peyğəmbərlərinə, xüsusilə onların sonuncusu olan həzrət Məhəmməd (s) və onun övladlarından olan məsum imamlara!

Mövcud tədqiqatlar əsasən, heç bir toplum yoxdur ki, onun üzvləri bir və ya neçə günü şadlıq və şənliklə keçirməsinlər.

Ən qədim dövrlərdən bəri dünya xalqlarının hər biri, hər bir din və mədəniyyətə malik olursalar da, özəl bir

bayramları varmış [1]. Millətlər və toplumlar, bayramlarını öz fikir və dünya görüşlərilə uyğun yaradarmışlar.

Müsəlmanlar da başqa millətlər kimi, müxtəlif münasibətlərə görə, ilin bəzi günlərinə dəyər verib, ona hörmətlə yanaşarmışlar; o böyük tarixi günləri əzəzləyib, qiymətləndirirmişlər.[2]

İslamın təntənəli və unudulmaz günləri, 10, 18 Zilhiccə, Şəvvalın ilk günü, Məb’əs günü (17 Rəcəb), Cümə günü və ilahi rəhbərlərin viladət günlərindən ibarətdir. Bu günlər müsəlmanların bayramı olduğu üçün, onlara müqəddəsliklə yanaşılır.

“Əyyamüllah” (tanrının günləri) olan bu günlərin hörmətləndirilməsi, ilahi üsulları qiymətləndirmək və əzizləmək deməkdir.

Müsəlmanlar, bə’zən intibah və xatırlama ilə bərabər olan belə şənliklərdə iştirak edir, öz rəhbər və başçılarını əzizləyib, onların təlimatına və yüksək şəxsiyyətlərinə diqqət yetirirlər. Habelə onların təntənəli və başdan-başa fəxrli həyatından dərs alıb, Məhəmməd (s) və onun xanədanına salamlar göndərir, düşmənlərinə nifrət etdiklərini bildirirlər.

Müsəlmanlar bu gündə öz bağlılıq və birliklərini göstərərək, xeyirli işlər görür, ondan sonra şadlıqla bir-birindən ayrılırlar.

Onlar bayramı bir birinə təbrik etmək və görüşmək ilə, məhəbbət və qardaşlıq ipini öz aralarında

---

1- "Yəhud və Məsihi dinləri dəyişikliyinə bir baxış", s 140.

2- Dini bayramlar, öyrədici və əxlaq yüksəlişi ilə ortaya çıxar. İslamda şənlik, ibadət və şükr etmək ilə yanaşıdır. Bayramlar, təhlil, təkbir, təhmid və təqdis ilə zinət olar.

möhkəmləndirir, bir birlərilə daha mehriban və şəfqətli olurlar. Bunun vasitəsilə könlü rahat və qayğısızcasına özlərini bayramdan sonra görəcəkləri çətin işlər üçün hazırlayırlar.

# LÜĞƏTDƏ BAYRAM

Bayram lüğətdə, “qayıtma”[1] anlamındadır. (İ’d, aud, mə’ad, i’adə və... bütün bir kökdəndirlər). Buna görə ildə, yaxud neçə ildən bir qurulan il dönümləri və anma mərasimlərinə “i’d” (bayram) deyilir. Başqa sözlə, xalq il boyu şənlik və şadlıq günlərinin qayıtmasını və təkrarını gözlədikləri və o günləri arzuladıqları üçün, belə bir şadlıq günləri “i’d” adlandırılmışdır.

Millətlər və cəmiyyətlər bayramlarını öz düşüncə və dünyagörüşlərilə uyğun yaradırlar. Maddi düşüncələri olan millətlərin bayramlarının da maddiyyatla bağlılığı var. Amma ilahi düşüncələrə malik olan millətlərin bayramları mənəvi və ilahi özəlliklərə malikdir. Məsələln, novruz bayramını şadlıq edən iranlı müsəlmanların “həft sin”[2] süfrələri, Qur’ansız deyil. Habelə onlar il dəyişən zaman “Ya müqəllibəl-qulubi vəl-əbsar...” duasını oxuyarlar.

İslami bayramlar islam baxımından, Allaha mənəviyyətə və işıqlıq aləminə qayıdışın təcəllisidir.

Bu bayramlar ibadətlə yanaşıdır. Çünki müsəlmanlar ən xalis qulluq və ibadətlər vasitəsilə bəndəlik və Allah əmrinin itaətinə yol tapır, öz insanlıq şərəfini əldə edir.

---

1- "Əqrəbül-məvarid"

2 - Yeddi sin. İl dəyişən zaman, özəlliklə İranda evlərdə sərilən süfrə. Bu süfrədə ilk hərfi "s" olan yeddi şey qoyular.

## BAYRAMLARIN QAYDASI

Hər bayramın bir neçə qaydası vardır ki, möminlər onları yerinə yetirərlər. Bunların bəzisini zahiri və mənəvi bölümlər altında izah edirik.

## ZAHİRİ QAYDALAR

Paklıq və qüsl etmək təravət səbəbidir. Bu əməl hər bayramın önəmli qaydalarındandır.

Ətirlənmək ki, hər zaman yaxşıdır- xüsusilə görüşlərdə və yaxud şəkliklərdə.

Ən yaxşı paltar geymək.

Şənlik və şadlıq mərasimlərində iştirak edib, şadlıq etmək.

"Əbül-həsən leysi" nəql edir ki: İmam Sadiq (ə) buyurdu: "Bayram günlərində şadlıq edin." Habelə Qədir-Xum bayramı haqqında buyurdu: "Qədir-Xum günü bayram olaraq, şənlik və şadlıq günüdür.»

Möminlərin qohumlara, xüsusilə öz ailələrinə hədiyyə verməlləri.

Bayram günü hədiyyə (bayramlıq) vermək ən qədim və bəyənilən qaydalardandır. Bu iş ürəkləri sevindirər, gözəl bir xatirə kimi yadlarda qalar. Əgər hədiyyə gənclərə və uşaqlara verilsə bir ehsandır; əgər xidmətçilərə və zəhmətkeşlərə verilsə ehsandan əlavə, onların zəhmətlərini qiymətləndirməkdir.

Hədiyyə vermək məhəbbətləri artırır, müsəlmanları bir-birinə yaxınlaşdırır.

Təbrik etmək.

Allahın Peyğəmbəri həzrət Məhəmməd (s), Qədir-Xum gününü təbrik etmə haqqında çoxlu tə'kid edərək

buyurmuşdur: “Hənniuni, hənniuni». Yə’ni məni təbrik edin, məni təbrik edin.[1]

Kasıblara əl tutmaq, xüsusilə yetim və yoxsulları şad etmək.

## MƏNƏVİ QAYDALAR

İbadətlərin artırılması.

Zahirdə, bütün günlərin və yerlərin dəyəri birdir, amma islami nöqteyi-nəzərdən belə deyil. Allah yanında bəzi günlər və yerlər, digər günlərdə və yerlərdən şərəfli və fəzilətlidir. Müsəlmanlar bu günlər və yerlərdə ibadət edərlər. Onlar bayram günlərini dua, ibadət, təkbir, təhlil və Məhəmməd (s) və onun xanədanına salavat göndərməklə keçirər, mənəviyyətlərini gücləndirən, can və ürəklərinə həyat bağışlayan zikr və dualarla məşğul olarlar.[2]

- Ehsan etmək.

Möminlər islami bayramlarda, bacardıqca, möminlərə təam verib xidmət edər, xalqın yaşayışında olan əngəlləri aradan götürər və beləliklə onlara ehsan edərlər.

Görüşmək və baş çəkmək

İslam məhəbbət və sevgini möminlərin ürəklərində canlandırmaq üçün, görüşməyə və baş çəkməyə tövsiyyə etmişdir. İslam dini saleh və mömin insanlarla oturub-durmağa önəm vermişdir. Buna görə də, möminlər, çalışırlar ki, bu yaxşı əməldən məhrum qalmasınlar.

---

1 - "Əlqədir", c 1, s 22.

2 - «Mən əhsənu minəl-lahi sibğətən». Kimdir, Allahdan, yaxşı və gözəl olan. Bəqərə surəsi, ayə 138.

İmamlar və imamzadələri ziyarət etmək

Bu iş də özündə çoxlu mənəvi və ilahi faydalar əks etdirir.

## DİNİ BAYRAMLARA ZƏRƏR YETİRƏN AMİLLƏR

Bildiyiniz kimi, hər bir şeyin özünəməxsus hududları vardır ki, onları saxlamaq lazım və gərəklidir. Dini bayramlar da belədir. Bəzi şəxslər güman edirlər ki, bayramlarda hər cürə şadlıq etmək cayizdir. Halbu ki, bu günlər əxlaqi rəzalət və fəsad yox, Allaha yaxınlaşmaq vasitəsi olmalıdır. Beləliklə, bu günlərdə digər günlərdən daha artıq haram işlərdən çəkinməliyik.

## İSLAMİ BAYRAMLAR HANSILARDIR

İslami mənbələrə diqqət yetirsək görərik ki, dinimiz aşağıda gələn bayramları təsdiq və təyid etmişdir:

## FİTİR BAYRAMI (RAMAZAN BAYRAMI)

Müsəlmanlar üçün, Fitir bayramı günü ən önəmli günlərdən biridir. Çünki oruc tutanlar mübarək Ramazan ayını başa vurduqdan, orucluğu ən yaxşı şəkildə başa çatdırdıqdan sonra, habelə özlərini islah edib, nəfs istəklərinə və təkamül qarşısında dayanan əngəllərə qələbə çaldıqdan sonra şükr edirlər. Onlar bu ayda haram işlərdən çəkinib, fitrətə və insanlığın pak zatına qayıtma, bu ayın bərəkətlərindən yararlanma və bu böyük və ilahi qonaqlığın şükrinə, nəhayət nəfs tağutuna qalib gəlmələrinə görə, hər il, Şəvval ayının

birinci günün bayram edirlər. Qüsl[1] etdikdən sonra "fitrə zəkatı" və müstəhəb sədəqələr verməklə Allahı razı edib iftar edərlər. Sonra da hazır bir ürək və təmiz bədənlə təkbir deyə-deyə bayramın ibadi-siyasi namazında iştirak edər, iki rəkətli və doqquz qunutlu namazı qıldıqdan sonra bayram namazının xütbələrinə qulaq asıb islam dünyasının ümumi məsələlərindən xəbərdar olarlar; Allahdan istərlər ki, ibadətlərini qəbul edib, qüsurlarını bağışlasın. İslam xalqları, Ramazan ayı bitdikdən sonra bayram edərlər. Çünki onlar bir aylıq oruc məşqinin sonunda təqva, nəzm və yüksək iradəyə nail olmuşlar.

Şəvvalın birinci günü o şəxslərin bayramıdır ki, ramazan ayının hörmətini saxlayaraq onun haqqını əda edib, böyük oruc ibadətini ən yaxşı formada yerinə yetirmişlər. Fitir bayramı orucları və əməlləri qəbul olan şəxslərin bayramıdır.

Bu bayram təkcə zahirini bəzəyib təzə paltar geyənlərin bayramı deyil, Allah istədiyi kimi, öz dini vəzifələrinə əməl edənlərin bayramıdır. Habelə ayın bitməsindən sonra bütün günahlardan və ilahi əzabdan qurtulanların və cəza gününün təhlükələrindən amanda olanların bayramıdır.

Müttəqilərin rəhbəri həzrət Əli (ə) buyurmuşdur: "İnnəma huvə i'dun limən qəbilə-lahu siyaməhu və şəkərə qiyaməh."[2]

---

1 - Fitir bayramı gecəsinin iki qüslü var. Birisi axşam və digəri gecənin sonunda. Bayramın günü də müstəhəb bir qüslü var.

2 - "Nəhcül-bəlağə", hikmət 428. "Rövzətül-va'izin", s 388, "Biharul-ənvar", s 136.

Yəni: «Fitir bayramı, yalnız oruc və namazları qəbul olanların bayramıdır.»

Başqa bir təbirlə buyurur: "İnnəma haza huvə i'dun limən qəfərə ləh."

Yəni: Bu bayram, təkcə günahları bağışlananlara aiddir.

Fitir bayramı ona görə bayram sayılmışdır ki, bu gündə müsəlmanlar toplansınlar, Allah üçün yığışaraq Ona, verdiyi nemətlər üçün şükr etsinlər. Beləliklə, o gün həm bayram, həm tərbiyə və zəkat vermə, həm də Allahın verdiyi nemətlərə diqqət etmə günüdür. Bunun üçün də Allah istəmişdir ki, müsəlmanlar bu gündə onu təqdis etmək üçün bir yerə toplansınlar.[1]

Vəzifələrini bilən möminlər, Fitir bayramında, iki böyük şadlıq duyarlar:

"Tanrı qarşısında itaət vəzifəsinin yerinə yetirilməsindən duyulan şadlıq və Allahın savab və əcr barəsində verdiyi və'dəsinə əməl edəcəyindən əmin olmaq üçün duyulan şadlıq."

"Kafi"də "Cabir", imam Baqirdən (ə) nəql edir ki, Peyğəmbər (s) buyurdu: "Şəvval ayının əvvəl günü yetişən zaman, münadi səslənər ki, ey möminlər, səhər çağı muzdunuzu almağa tələsin."

Sonra buyurdu: "Ey Cabir! Tanrının verdiyi muzd və əvəz sultanların verdiyi muzd kimi deyil." (Yəni ilahi muzd çox yüksək olaraq, ibadətlərin qəbul olması və Allahın cənnətidir.)

---

1 - "Mən la yəhzərihül-fəqih", c1, s 522. "Vəsailüş-şi'ə, c 5, s 141. "Uyunu əxbarur-riza, c 2, s 115. "İləlüş-şərayi'", c 9, s 69.

Sonunda da tə’kid edərək buyurdu: “O gün əvəz alma günündür.”[1]

Müsəlmanlar Fitir bayramında əllərini Allahın dərgahına qaldırıb, söylərlər: “Ey Allah, ey böyüklüyə, ucalığa, bağışlama və bacarıqlığa layiq. Ey rəhmət və əfv sahibi, Sən ona layiqsən ki səndən ötrü günahdan çəkinəm və Səndən bağışlanma istəyəm. Səni and verirəm müsəlmanlar üçün bayram etdiyin bu günün və həzrət Məhəmməd (s) üçün züxr, şərəf və məqamının yüksəlməsi vasitəsi saydığın bu bayramın haqqına ki, həzrət Məhəmməd və onun xanədanına salam göndər; məni Məhəmməd (s) və xanədanına bağışladığın yaxşılıq və səadətdən faydalandır və məni Məhəmməd (s) və xanədanını onlardan uzaqlaşdırdığın şərlərdən qurtar.

Sənin salamların Məhəmməd (s) və onun xanədanına olsun! Ey Allah, layiq insanların Səndən istədiklərini mən də Səndən istəyirəm; layiq qullarının sənə sığındığı şeylərdən mən də sənə sığınıram.»[2]

Mömin oruc tutanlar, bu əzəmətli gündə öz ibadətlərinin cəzasını alarlar. Rəvayətdə vardır ki, imam Həsən (ə), Fitir bayramı günündə bir dəstənin yanından keçərkən, gördü ki, onlar gülüb oynayırlar. Həzrət onlara buyurdu: “Ramazan ayı, Allahın qulları üçün, yarış meydanıdır. Allahın itaəti yolunda gedənlər, qurtulacaqlar və qüsur edənlər isə, peşman olacaqlar.”

1 - "Əlkafi", c 4, s 168. "Əl-iqbal", s 481
2 - "Misbahul-mütəhəccid", s 654. "əl-iqbal", c 1, s 495.

Bu gün möminlər mükafatlandırılar, günah edənlər isə qəzəbə düçar olacaqlar. Necə də təəccüblüdür ki, hansı dəstədən olduğunuzu bilmədiyiniz halda gülüb oynamaqdasınız.

## QURBAN BAYRAMI - QAN VƏ ŞƏRƏF

Allah evini ziyarət edənlər Zilhiccənin onunda bütün əlaqə və bağlantılarını bir yana qoyub, "cəmərəyi əqəbə"ni daşladıqdan sonra qurban kəsmə məhəllinə gedərlər. Qurban kəsməklə həccin əməllərini başa çatdırarlar. Onların qurban kəsmələri qürur və təkəbbürlərini qurban etmək və ibadətin təcəllisi olaraq, Allah yolunda isar və candan keçmələrini göstərir.

Bu təntənəli gün Allahın böyük Peyğəmbəri, büt sındıran İbrahimi (ə) xatırladır. Belə ki bəndəçilik və Allahın iradəsi önündə mütləq şəkildə təslim olduğu üçün öz ciyərparası İsmaili qurban edərək, boğazına bıçaq qoymaqda belə bir an şəkk edib, dayanmadı.

Hacılar Minada bu qədər Allah yolunda tökülən qanları gördükdə öyrənir ki, ilahi imtahan zamanı Allah yolunda xalis olmaq üçün, ürəyinin istəklərindən vaz keçsin və Allahın istədiklərini öz istəklərindən əvvəl bilsin. Allahın rizasını əldə etmək yolunda sevdiklərini və ən əziz hər bir şeyini ona ithaf etsin, öz eşqini mə'şuqinə sübut etsin.

Allah evini ziyarət edənlər qurbangahı gördükdən sonra qandan, Allah yolunda ölmək və ya öldürməkdən qorxmazlar.

Doğrudan da hər il dini bir ayin olaraq qan və fədakarlıq bayramı tutan millət zilləti qəbul etməz və dünya həyatına bağlanmadığına görə, əcnəbi zülmünün qarşısında boyun əyməz.

Müsəlmanlar bu şövkətli gündə bayram namazını qılıb, qurban kəsdikdən sonra fəqir, ac və yoxsullara yardım etməyi də unutmurlar.[1] Həzrət Əli (ə) buyurdu: "Xalq qurban kəsməyin dəyərini bilsəydi, borc edib qurban kəsərdi."[2]

O gün müsəlmanlar çöldə islamın beynəlxalq ibadəti olan qurban namazını qılarlar. Xətib namazdan sonra xütbə oxuyur, lazım olan və o böyük toplantı ilə əlaqədar mövzular haqqında danışır. Habelə islam dünyasının aktual məsələlərini xatırladıb, müsəlmanlar arasında qardaşlıq bağlılıqları və onları birləşdirən amillər haqqında söhbət açır. Həzrət Əlinin (ə) qurban bayramı xütbələrində söylədiyi faydalı sözlərdə biri budur: "Kəsdiyiniz qurbanlığın ətindən yeyin, qohumlarınıza da pay verib, o günə görə Allaha şükr edin.[3]

## PEYĞƏMBƏR (S) NƏ BUYURMUŞDUR?

İslamın əziz Peyğəmbəri (s) sonuncu həccinin qurban bayramında müsəlmanlara buyurdu:

---

1 - «Fə kulu minha və ət'imul-ba'isil-fəqir». Həc surəsi, ayə 31. «Və ət'imul-qani'i vəl-mü'tər.», Həc surəsi, ayə 37. Rəvayətlərdə vardır ki:«innəma cə'ələl-lahu hazəl-əzha lituşbi'ə məsakinukum minəl- ləhmi fə'ətimuhum», yəni: Allah buna görə qurban kəsməyə tövsiyə etdi ki, yoxsullar ətdən yeyib doysunlar. "Vəsailüş-şi'ə", c 10, s 147, hədis 22.
2 - "İləlüş-şərayi', c 2, s 440.
3 - "Vəsilüş-şiə", c 10, s 147, hədis 23.

«Bu günün hansı gün olduğunu bilirsiniz? Bu ayın hansı ay olduğundan xəbəriniz var?»

Dedilər: «Allah və onun Peyğəmbəri bizdən daha xəbərdardır. Onu bilmək istəyirdik.»

Həzrət buyurdu: «Bu gün qurban bayramıdır. Çox böyük və ehtiramlı bir gündür; bu çöl Allahın hərəmidir. Bilin və xəbərdar olun ki, bu gün, bu ay və bu çöl haram olduğu kimi, siz müsəlmanların qanı, malı və namusu bir-birinizə haram edilmişdir. Allah heç bir müsəlmanı digər müsəlmanların haqqına təcavüz və cəsarət etməyə haqlı bilməmişdir.»

## CÜMƏ - HƏFTƏLİK BAYRAM

Cümə günü islam mədəniyyətində özəl bir müqəddəslik, şərəf, mənəviyyət və hörmətə malikdir. Bu gün Allahın bərəkəti, rəhməti və məğfirəti ilə dolğundur. Bu gün bayram və paklıq, ruh və canı təmizləmə, düyünlərin açılması, günahların silinməsi, əta və bağışlama, elm yayma, duaların qəbul olunması, xəbərdarlıq, fəzilət, mənəviyyət, kamillik istəyi və insan həyatının yenilənməsi günüdür. Bu günün bayram olduğunu təsdiq edən rəvayətlər çoxdur.[1] O cümlədən:

Həzrət imam Hüseyn (ə) buyurmuşdur: «...Əlcumə i'dun lilmuslimin və huvə əfzəlu minəl- fitri vəl-əzha,

1 - Bax: "sünəni darəmi", c 1, s 1378. "sünəni ibn macə", c 1, s 349, 415, 416. "sünəni əbi davud", c 1, s 281. "müsnədi əhməd", c 4, s 277, c 2, s 303, 532. "müsnədi həmidi", c 1, s 34, 35. "Kəşfül-əstar", c 1, s 499. "Müsnədi təyyasi", s 194. "Nəsbür-rayə", c 2, s 225.

və yəumu qədiru xum, əfzəlul-ə'yad və huvə saminu əşərə min zilhiccə...»[1]

Yəni: "Allah cüməni müsəlmanlar üçün bayram etmişdir. Bu bayram Fitir və Qurban bayramlarından üstündür. Qədir-xum (18 zilhiccə) bayramı bunların ən fəzilətlisidir.»

Mərhum Səduq yazır: "Xətibə Əmirəl-mö'minin (ə) fil cum'ə, fəqalə: Əlhəmdu lillahil-vəliyyül-həmid. ila qalə: Əla innə hazəl-yəum, yəumun cə'ələl-lahu ləkum i'dən və huvə səyyidu əyyaməkum və əfzəlu ə'yadəkum...»[2]

Yəni: Həzrət Əli (ə) cümə günü xütbə oxuyaraq, Allahın həmdindən sonra buyurdu: Bilin ki, doğrudan Allah bu günü sizin üçün bayram etdi. Cümə günlərin ağası və sizin ən üstün bayramınızdır.

Peyğəmbərdən (s) rəvayət vardır ki: "İnnə hazəl-yəumu cə'ələhul-lahu lilmusliminə i'da».[3]

Yəni, doğrudan da Allah bu günü (cümə) müsəlmanlar üçün bayram etmişdir.

Bu mübarək gündə fitrəti pak olan müsəlmanlar xeyir işlər görməkdə və cümənin əzəmətli namazında iştirak etməkdə bir-birindən irəli keçərlər.

Cümə gününün əməllərini yerinə yetirmə tövfiqi, müsəlmanların təqvasını o qədər gücləndirir və ürək və ruhlarını o qədər səfalı və mənəviyyatlə dolğun edir ki, onlar bir həftə özünü islah etmək uğrunda çalışmağa və cəmiyyətə xidmət etməyə hazır olarlar.

---

1 - "Vəsailüş-şi'ə", c 5, s 66, hədis 18.
2 - "Vəsailüş-şi'ə", c 5, s 65, hədis12.
3 -"Sünəni beyhəqi", c 2, s 243. "İqtiza'üs-siratəl-müstəqim", s 189. "Fəthül-məcid", s 154. "Kənzül-ummal", hədis 21055.

Bu əməllər onları xətalardan çəkindirib, azğınlıqdan uzaq saxlar. Beləliklə, gələn cümədə də bu əməlləri təkrar edərlər.

Qeyd etmək lazımdır ki, bu mübarək günün əməlləri "Məfatihül-cinan" kimi dua kitablarından əlavə, cümə günü mövzusunda yazılan kitablarda da gəlmişdir. O cümlədən:

"Əlmuraqibat fi əmali yəumul-cum'ə"; Səyyid Cəvad Hüseyni Ali Əli Şahrudi.

"Adabul cum'ə"; Məhəmməd Təqi Məclisi.

"Əbvabul-cənnat fi adabul-cuməat"; Məhəmməd Təqi Musəvi İsfahani

"Cümə və cümə namazının qayda və faydaları" risaləsi; Zeynəlabidin Şəhidi Sani.

"Cüməni anlayaq"; Müəllifin əsərlərindən.

# NOVRUZ BAYRAMI

Fərvərdin ayının ilk günü (21 mart) təbiətin oyanması və dünyanın yeni həyat tapması günüdür. Bu gündə yaradılış öz gözəlliyini, ən yüksək səviyyədə ortaya çıxarar. Çöllər yamyaşıl olar və yazın təravətli nəsimi, ölü dünyanı dirildib, yeni paltar geyindirər. İranlılar və iranın qonşuluğunda yaşayan xalqlar bu günü bayram edərlər.

Novruz haqqında bunu demək lazımdır ki, bu bayram əsil islami bir bayram olmasa da, islam dini onunla müxalif deyil və novruzda olan ilahi və bəyənilən əməllərlə müvafiqdir. Buna görə də novruz bayramı islamiyyət dövrünün başlanğıcından bəri qəbul edilmiş bir milli münasibət kimi indiki

zamanadək qalmışdır. Müsəlmanlar novruz bayramı günlərində evlərini təmizləyib, yeni paltarlar geyər, bir-birinin görüşünə gedib hədiyyələr verərlər. Beləliklə, onun bəyənilən adətlərindən, mənəvi faydalar qazanıb, onu Allaha yaxınlaşmaq üçün vasitə edərlər. Din rəhbərlərinin öz ardıcıllarına bu günün barəsində öyrətdikləri dualar və zikrlər bu bayramı bir növ təsdiq edən əlamətlərdəndir. Bu adətlərin Allaha yaxınlaşmaq niyyətilə yerinə yetirilməsi və bu duaların oxunması- məsum imamlardan olmasının bəlli olmadığına rəğmən- çox yaxşı və gözəl bir işdir.

Həqiqətən, ibadət və Allahı xatırlama vasitəsilə, novruz bayramı irfani bir mərasimə dönmüşdür. Çünki insana Allahı xatırlada hər bir zaman bayramdır.

Məşhur alimlərdən biri novruz haqqında yazır: [1] "Novruz haqqında yeni bir söz söyləmək çox çətin dir. Novruz milli bir bayramdır.»

Novruz əsrlər boyu dünyanın bütün bayramları ilə fərqli olmuşdur. Novruz ictimai bir qərar və qəbul etdirilmiş siyasi bir münasibət olmadığına görə həmişəyaşardır. Bu bayram ümumbəşəri bir şənlik, yer ilə göyün şadlıq günüdür. Hissləri coşduran, çiçəklənmələrin həyəcanıdır; hər başlanğıcın iştiyaqla dolğundur.

Novruz bayramı daimi və gözəl adətlərdəndir.

Yaz fəsli ilk mövsüm, fərvərdin ilk ay və novruz isə ilk gündür.

İrqçilik rənglərini silib adətləri dəyişdirən İslam dini novruzu da cilalandırıb, təməllərini möhkəmləndirdi

1 - "Otuz məqalə", s. 376

və bir çox xalqları müsəlman olduqları zaman özünüunutmaq təhlükəsindən saxladı.

Həzrət Əlinin (ə) xilafətə və Qədir-xumda vəsi [1] seçilməsi bu gündə olmuşdur. Nə qəribə bir təsadüf! İranlıların həzrət Əliyə (ə) göstərdikləri xalislik, iman və eşq novruzun dayağı oldu. Milli ruhla ilə diri qalan novruz dini rəng aldı. Soy və millət sayəsində olan sünnətlər iran xalqlarının ürəyində yaradılan güclü eşq və imanla möhkəmlənib müqəddəs oldu; səfəvilər dönəmində özünəməxsus dualarla bərabər, ixlasla zinətlənib şiələrin rəsmi şüarlarından biri oldu.[2]

## NOVRUZUN MEYDANA GƏLMƏSİ

Novruzun necə yaranmasına dair müxtəlif tarixi rəvayətlər və yazılar vardır. Onların ən önəmlisi novruzun yaranmasını "Pişdadi" [3] silsiləsinə mənsub edir. Novruz haqqında, Firdovsi [4] , Xəyyam [5] , Əbüreyhan Biruni[6]və Təbəri əsərlərində söz getmişdir.

---

1 - "Vəsailüş-şi'ə", c 5, s 288. və "Biharul-ənvar", c 37, s 108 də nəql edilən hədislərə işarətdir.

2 - "Kəvir", Əli Şəriti.

3 - "Məs'udi yazır: «Xalqın çoxu novruzun o dönəmdən başlanmasına və şahların rəsmi bayramları olduğuna inanmaqdadırlar. "Mürcüz-zəhəb", c 1, s 223.

4 - "Şahnamə", Buruxim çapı, c 1, s 25.

5 - "Novruznamə", Ömər Xəyyama mənsub, s 14.

6 - "Əl'asarul-baqiyə"nin farsca tərcüməsi, s 242.

Nuh Peyğəmbərin müasiri olan, 716 il davam edən Pişdadi silsiləsi şahlarından biri Xurşid oğlu Cəmşiddir. O 384 (s.ə) ildə Zəhhakı məğlub edəndən sonra şahlıq taxtına çıxdı[1]. Novruz “Parsi”lər ilinin ilk günü olaraq, onlardan yadigar qalmışdır. Cəmşid səltənətinin 316-cı ilində Azərbaycanı fəth etdi. Orada onun üçün şərqə tərəf şanlı bir taxt qurdular. Şah taxta çıxıb, daş-qaşla bəzənmiş tacını başına taxan zaman gün çıxdı və şahın cəvahirləri parıldadı. Xalq şadlıq edib dedi: Bu gün yeni gündür.

O gün günəş “həməl” bürcünə keçmişdir. Cəmşid əmr etdi ki, iranlılar hər il o günü bayram etsinlər.

İranın ən böyük şairlərindən olan Firdovsi, Cəmşid və Novruz barəsində belə deyir:[2] «Bu mübarək novruz günü, o zamandan yadigar qalmışdır.»

Ömər Xəyyam Nişapuri Novruznamədə yazır: “Kiyumərs”, 3197 (s.ə) ildə İranın ilk padışahı olaraq şahlıq taxtına keçdi. O, illər və aylara ad qoymaq və tarix yazdırmaq istədi. Kiyumərs o günün səhər vaxtı, həməl bürcü ilk dəqiqəsinə gələndə bütün əcəm “mubəd”lərini toplayıb əmr etdi ki tarixi buradan başlasınlar. Habelə ilin dörd mövsümünü yəni, yaz, yay, payız və qış mövsümlərini də Kiyumərs təyin etdi. Amma bu günü Novruz adlandıran Cəmşid idi. Cəmşid bu günü bayram edib şadlıq etməyə əmr etdi.

İranın məşhur şairi “Ünsüri” deyir: «Böyük novruz gəldi; dünyanın zinəti iranlılar üçün Cəm (Cəmşiddən) miras qalmışdır.

---

1 - Bax: "Doktor Müin"in farsca sözlüyü, c 5, s 433.

2 - "Şahnamə" (Tehran, Buruxim çapı), s 25, 26.

# NOVRUZ - PEYĞƏMBƏR (S) ZAMANINDA

Alusi "Büluğul-ədəb"də (c 1, s 364) nəql edir ki: Ənsar, novruz və "mehrigan" bayramları barədə Peyğəmbərdən soruşdular. Həzrət buyurdu: "Allah onlardan yaxşısını (Fitir və Əzha) mənə bağışlamışdır." Bu rəvayətdən bilinir ki, ərəblər novruz və mehrigan bayramlarını qədim zamanlardan tanıyarmışlar.

"Qamus"da və "Bağdad tarixi" (c 2, s 326) kitablarında, novruz barəsində belə yazılmışdır:

"Əbu Sabit Nö'man ibn Mərzban (Əbu Hənifənin cəddi) həzrət Əliyə (ə) halva təqdim etdi. Həzrət "onun münasibəti nədir?" deyə soruşdu.

Nö'man "novruz üçündür" dedi. Həzrət buyurdu: "Bütün günləri novruz edin."[1]

("Də'aimul-islam, c 1, s 471, "İbn Nədim Fihristi". "Əl'ənsab, c 3, s37. "Hilyətül-ovliya, c 1, s 18, kitablarında, halva deyil, paludə qeyd edilmişdir.)

Bəzi alimlər[2] bu hədisi İslamın, novruz bayramını təsdiq etməsinə dəlil bilirək belə deyirlər: «Bu, həzrətin novruzu təsdiq etməsinə bir dəlildir. Çünki əgər bəyənilməz bir adət olsaydı, onları qadağan edərdi».

Amma bu "mürsəl rəvayət" novruzun şər'i münasibət olmasına dəlil deyil. Əgər novruz islami bir bayram olsaydı, həzrət ondan xəbərsizliyini bildirməzdi və o hədiyyənin nə üçün olduğunu soruşmazdı. Qeyd olunur ki, həzrət hədiyyəni qəbul etmişdi. Ola bilər qəbul etməsi bunun üçün imiş ki,

---

1 - Bax: "İbni Nədim Fihristi". "Ənniruzu fi məsadiril-fiqh vəl-hədis", s 82.
2 - "Ənniruzu fil-islam", Seyyid Əbdür-Riza Şəhristani. və bşq.

novruz münasibətilə hədiyyə vermək xalq kütləsi arasında bəyənilir; bu mərasim məqbul və məhəbbət artıran bir sünnəttdir.

İslamın başlanğıcında xilafət mərkəzində olan iranlılar öz milli adətlərinə əsasən, bu bayramı əzizləyərmişlər. Əbbasilər dönəmində ərəb bir yazıçı bu adətlə müxalifət edərək, onu "məcuslar" (kafirlər) bayramı adlandırmışdı (Ənnəqz, s 445).

İranlılar qədim zamanlardan bəri, novruz münasibətilə hədiyyə verməyi adət bilərmişlər.

Bə'zi ərəb hakimləri belə bir fürsəti qənimət bilib, gəlirlərini artırmaq məqsədilə bu hədiyyələri qəbul edər, novruz adətlərini yayırmışlar. Tarixdə var ki Müaviyə bu adətin genişlənməsi üçün çalışarmış. Ömər ibn Əbdül Əziz bu rəsmi adəti qadağan etdi. Yenə Yəzid Sani (Yəzid ibn Əbdülməlik Mərvan), bu adəti dirçəltdi. Əbbasi dönəmində onların pərəstişkarlarının çoxu iranlı olduğuna görə, bu adətin tərvic edilməsi daha da şiddətləndi.[1]

İbni Şəhraşub "Mənaqib" də yazır ki: "Mənsur, imam Kazimə (ə) təklif etdi ki, novruzu təbrik etmək üçün əyləşib, ithaf edilən hədiyyələri qəbul etsin. Həzrət buyurdu:

«İnni qəd fəttəştul-əxbarə ən cəddi Rəsulullah (s), fələm əcid lihazəl-i'di xəbərən və innəhu sunnətul furusi və məhahəl-islamu, və məazəllahu ən nuhyi ma məhahul-islam. Fəqaləl-mənsuru: innəma nəf'ilu hazəs-siyasətə lilcundi, fəsə'əltukə billahil- əzimi illa cələstə, fəcələsə...»

---

1 - "Yəqubi tarixi", c 2, s 306, 313.

Yəni: Mən cəddim Peyğəmbərin sünnə və sirəsinə baxdım, amma bu bayramın barəsində olan bir söz görmədim. Bu əcəmlər sünnətidir və islam onu məhv etmişdir. Mən islamın məhv etdiyi şeyləri dirçəldə bilmərəm.

Mənsur dedi: «Bu iş məmləkətin idarəsi və ordunun siyasəti üçündür. Səni Allaha and verirəm ki əyləşəsiniz.» Və nəticədə İmam (ə) əyləşdi.[1]

Əlbəttə, bu nəqlin belə bir iddianı sübut edə bilməməsi də mümkündür. Yəni imam, Mənsur hökumətini təsdiq etməmək istəyirdi.

İranda baş verən inqilablar, "Bəni üməyyə"nin məğlubiyyəti və Əbbasilərin, Bəni üməyyəni məğlub etməsi, habelə bərməkilər və sayirə iranlı vəzirlərin nüfuzu və "tahiri"lər və "səffari"lərin hökuməti, İran münasibətləri və onların ən önəmlisi olan novruz bayramının rövnəqini artırdı.

Novruz bayramını təsdiq edən hədislər arasında bir hədis var ki, bu gündə böyük hadisələr baş vermişdir. Bu hadisələrin çoxluğu insanı şübhələndirir.

Məsələn, Allahın öz qullarından əhd-peyman alması, tufanın dayanması və Nuh Peyğəmbərin gəmisinin yer üzərinə oturması, yaxud həzrət Əlinin (ə) Qədir-Xumda vəsi seçilməsi[2], İbrahim peyğəmbərin bütləri sındırması, Məkkənin fəth edilməsindən sonra həzrət Əlinin (ə) Kə'bədə olan bütləri sındırması və nəhayət,

1 - "İbni şəhraşub mənaqibi", c 4, s 318. "mizanul-hikmə, c 7, s 133(Biharul-ənvar'dan nəql edilmiş, c 59, s 100. c 4, s 108). "Lö'lü' və mərcan", s 42 (Mənaqib'dən nəql edilmiş). "Əl'əvalim", c 21, s 188, 189.)

2 - "Biharul-ənvar, c 6, s 91. "Vəsailüş-şi'ə", c 5, s 289. "Zadul-musafirin", s 523. "Cəvahirul-kəlam".

həzrət Məhdinin (ə) zühurunun bu gündə baş verəcəyi bu hədisdə qeyd edilmişdir. Belə isə nə üçün bu hədisdə Peyğəmbər və üç xəlifə zamanından bir əsər yoxdur? Yaxud heç olmasa şiə hədislərində «müstəmərrə sirə» kimi daxil olmamışdır. Və nə üçün tarix günlərini tətbiq etdikdə belə bir uyğunluq əldə edilmir?!

Halbuki hər önəmli bir hadisə və hər əlamətdar günün novruzda baş verməsini təsdiq edən belə hədislər iranlıları təşviq edib, onu davam etdirmələrinə səbəb olmuşdur. Bir halda ki "sədə" və "mehrigan" kimi adətlər şairlər yox, xalq kütləsi arasında unudulmaqda idi.[1]

Qeyd: Novruzu təsdiq edən rəvayətlər, mürsələ ya zəifdilər. Bunlar novruzun islami olduğunu təyid edə bilməzlər. Və fəqihlərin novruz günündə qüsl etmə və oruc tutmağın müstəhəb olduğuna dair fətva verdikləri islami adab və sünnətlərin dəlillərindəndir. Halbu ki, bu gündə qüsl etmə və oruc tutma bu sünnətin bid'ət olduğuna görə haramdır; belə bir əməli təyid etmək (hər halda) haram əməli təsdiqetmə deməkdir.

"Müəlli ibn Xüneys"in rəvayəti də yuxarıda gələn hədisin təsdiqindədir. "Qəzayiri" və "Nəccaşi", onun hədisini zəif bilsələr də, bunu, fəqihlərin fətvasına əməl etməklə əvəz olunmuş hesab etmişlər.

Bunların bəzisi belə deyirlər ki, "Mənaqib"də nəql edilən imam Kazimin (ə) rəvayəti, Müəlla ibn Xüneysin rəvayətilə müxalifdir. Yəni o hədis, novruzun şərafət və fəzilətini yox, sadəcə bayram olduğunu inkar edir.

1 - Bax: "Təqvim bilimi", s 154, haşiyə 310.

Şiə fəqihlərinin heç biri yuxarıda göstərilən rəvayətin xeyrinə fətva verməmişdir. Mərhum Əllamə Məclisi və Şeyx Ənsari kimi bəzi fəqihlər, təqiyyəyə fətva vermişlər. Bunlara əlavə etməliyik ki, rical elmi alimlərinin bəzisi Qəzayiri və Nəcaşinin cavabını verərək, onun zəif olduğunu qəbul etməmişlər.

Bildiyiniz kimi, vacibat bəhsində mötəbər dəlillərə ehtiyac duyulur. Və zəif hədis təklikdə vacib bir hökmün dəlili sayıla bilməz. Amma müstəhəb əməllərdə dərin tədqiq lazım deyil.

Əgər bir hədisin doğru olub-olmadığı tədqiq etməyə bağlı olsa, onu asan saymaq cayizdir. Və "mən bələğə əxbar" qaydasına əsaslanaraq, qəbul olma və səhih olma niyyətilə əməl etmək olar.

"Mən bələğə əxbar" rəvayətləri o hədislərdir ki, əgər bir kimsə bu hədislərə məsum imam hədisi desə, əməl etsə, Allah onun niyyətinə görə savab yazar. Hətta məsum imam buyurmamışsa da.[1]

## QƏDİR-XUM BAYRAMI

Qədir-xum bayramı Kamil insan və adil imamın imamətə seçilməsinin bayramıdır.

Mövləl-müvəhhidin, imamul-muttəqin, əmirəl-möminin, həzrət Əlinin (ə) vilayətə seçilməsi, vilayət toxumunu canlarda əkmək günü, ən böyük bayram və "Allahu əkbər"[2] günüdür. Qədir günü tarixin, Əli eşqinin odunu düşüncələrə salıb, ürəklərdə ümüd və arzu yaradan, parlaq günlərindəndir. Doğrudan,

1 - "Vəsailüş-şi'ə", s 82

2 - Rəvayətlərdən alınmışdır. Bax: "Biharul-ənvar", c 98, s 302, 321. c 37, s 156.

“Mühəqqiq İsfahani” «Əl’ənvarul-qudsiyyə”də, nə gözəl demişdir:[1]

İdul-qədiri ə’zəmul-ə’yadi
kəm fihi lillahi minəl-əyadi
əkmilu fihi dinəhul-mubina
summər-təzəl-islamə fihi dina

«Qədir bayramı, bayramların ən əzəmətlisidir. Tanrının o gündə əlləri var. Allah O gündə dinini mükəmməl etdi. Və bu dinin bəşər dini olduğuna razı oldu.»

Bu gün islamın önəmli tarixi bir olayını xatırladır. Şiələr bu günü misilsiz təntənə ilə bayram sanaraq, şadlıq edirlər. Habelə bayramların müstəhəb əməllərini yerinə yetirirlər.

## QƏDİR-XUM MACƏRASI

Hicrətin 10-cu ilində, Peyğəmbər (s) Allah-təala tərəfindən, o ilin həcc mərasimində iştirak etmək əmri aldı. İslam tarixçiləri bu səfəri “Həccətül-vida”, “Həccətül-bilağ” və “Həccətül-kəmal” adlandırmışlar.

Müsəlmanlar tam iştiyaq ilə Peyğəmbərlə birgə həcc mərasimini yerinə yetirib, həzrətin əmri ilə Mədinəyə doğru getməkdə idilər. «Rabiğ»ə yetişən zaman, Qədir-xum[2] adlanan bir məhəldə, Cəbrail həzrət Peyğəmbərə (s) nazil olub, Allah tərəfindən önəmli bir xəbər gətirdi:

1 - "Əl’ənvarul-qudsiyyə", Beyrut çapı, s 24.

2 - Xum, Məkkə və Mədinə arasında olan bir məhəldir. Xum, "Cühfə"nin, üç milliyində, və "Rabiğ"in 25 kilometrəliyində, yerləşmişdir. İndi isə

“Ey Peyğəmbər, Allah tərəfindən sənə nazil olan hökmü xalqa çatdır. Əgər bunu etməsən, öz risalətini yerinə yetirməmisən.»[1]

Belə önəmli bir hökmü çatdırmaq üçün ən yaxşı yer Qədir-xum idi. Peyğəmbər hacıların “Cöhfə”də, Qədir-xum adlanan məhəldə toplanmalarına əmr etdi. Qədir-xum o məntəqədə bir dörd yol ayrıcı kimi idi. Yüz minə[2] yaxın tanrı evini ziyarət edən müsəlman, o qızmar çöldə toplaşıb, bir neçə gün orada qalıb, həzrətin əmrini gözləyirdilər.

Doğrudan nə olmuşdur ki, həzrət bu quru çöldə dayanmağa əmr etmişdi? Və nə üçün qabaqdan gedənlərin geri dönmələrinə əmr olunmuşdu?

Nəhayət, zilhiccənin 18-ci günündə intizar başa çatdı və müsəlmanlar gördülər ki, Peyğəmbər (s) günorta çağı dəvələrin xamıdlarından düzəldilmiş minbərə çıxıb, nübüvvət xəttinin vilayətdə davam etdirilməsi üçün uzun bir xütbə oxudu; sonuncu vəsiyyətlərini xalqa çatdırıb onları həzrət Əli (ə) ilə müxalifətdən çəkindirdi. Peyğəmbər həzrət Əlinin (ə) müxaliflərini Allahın qəzəbi və əbədi ağır əzabla qorxutdu. Beləliklə həzrət Əlini (ə) öz vəsi və canişini kimi hamıya təqdim etdi.

Xütbədən sonra şeyxeyn, Əli (ə) ilə bey’ət edərək bu seçilməyi, gələcəkdə müsəlmanların rəhbəri olan Əliyə (ə) təbrik etdilər. Onlar hamıdan əvvəl təbrik edib, o günə yüksək önəm verdilər. Peyğəmbər sevinclə yüz

---

"Vadiyül-qurbə" adıla tanınmaqdadır. ("Məktəb şübhələrinə cavab" kitabından)

1 Maidə surəsi, ayə 73.

2 - Qaynaqlarda, 120000, 147000, 180000 nəfər də getmişdir.

minə yaxın müsəlmanların qarşısında minbərdən endi. Beləliklə, Peyğəmbərdən sonra islamın ən yüksək şəxsiyyəti olan Əli (ə), Peyğəmbərin fasiləsiz olaraq vəsilik və canişinliyinə seçildi və islam tarixində yeni bir səhifə açıldı.

Əhli-sünnə alimlərinin 15 mö'təbər təfsirlərinə [1] əsasən, o gün həzrət Əlinin (ə) imamət və xilafətə nəsb edildiyindən sonra, «əlyəum əkməltu ləkum dinukum...»[2] ayəsi nazil olmuşdur.

Peyğəmbər (s) bu sevindirici hökmü aldıqdan sonra buyurdu: "Əllahu əkbər! Din mükəmməl oldu. və nemətlər tamamlandı və Allah Əlinin məndən sonra vəli olduğuna razı oldu."

Mühəddislər, tarixçilər və sirə yazanlar "Qədir" hədisini bir az fərqlə öz əsərlərində gətirmişlər. Misal üçün:

"Müsnəd", imam Əhməd Hənbəl (241. h), c 1, s 118.

"Xəsais", Nəsayi (303. M), s 21.

"Sünən", ibn Macə (272. M), c 1, s 43.

"Müstədrək", Hakim (405. M), c 3, s 110.

"Sünən", Termezi (279. M), c 5, s 297.

"Kifayətut-talib", Kunci Şafii (658. M), s 50-65.

"Ərriyazun-nəzərə", Muhibbuddin Təbəri (694. M), c 2, s 222.

---

1 - "Əddürrül-mənşur", Hafiz suyuti (849-911. h), c 2, s 259. "Əttəfsirul-kəbir", Fəxr Razi (606. m), c 12, s 49. "Ruhul-mə'ani", alusi (1270. m), c 6, s 55. "Təfsir", ibni Kəsir Şami (774. m), c 2, s 14. Şiə müfəssirlərindən, örnək üçün: "Təfsir", Əli ibn İbrahim Qumi, s 166. "Əlburhan", Bəhrani (1107. m), c 1, s 436. "Məcmə'ül-bəyan", Təbərsi (761. h), c 3, s 223. "Əttibyan", Şeyx Tusi (460. h), c 3, s 435.

2 - Maidə surəsi, ayə 3

“Məcmə’üz-zərayid”, Heysəmi (807. M), c 9, s 103-109.

“Kənzül-ummal”, Müttəqi Hindi (975. M), c 22, s 202.

Alimlər öz kitablarında Qədir hədisini nəql etməklə kifayətlənməyib, onun haqqında müstəqil kitablar yazmışlar.(bax: “Əlqədir”, s 178, 152, 190).

Bəzi tədqiqatlara əsasən, 14-cü hicri yüzilliyin başlanğıcından bəri, 353 dən artıq mö’təbər islami kitab yazılmışdır ki, onların hamısında Qədir hədisi nəql edilmişdir.[1]

“Əttəracimu vəs-siyər” və “Ə’lamun minəş-şərq” kitablarını yazan “Məhəmməd Əbdulğəni” deyir ki: «Qədir hədisi sihhət, təvatur və sənəd istihkamında belədir ki, sübut və təyidə ehtiyacı yoxdur.»[2] Əhli-sünnə alimlərindən olan “Hafiz Əbdüləziz” deyir: «Qədir hədisi təvaturun ən uca dərəcəsində dayanmışdır.»[3]

Hicri 6-cı yüzilliyin, Əhli-beyt şairi olan “Fənckərdi”, öz şerində deyir:

La tunkirənnə qədirə xummu innəhu
kəşşəmsi fi işraqiha bəl əzhəru
Fihi imamətu həydərin və kəmalihu
və cəlalihu həttəl-qiyaməti tuzkəru[4]

«Sən Qədir-xum hadisəsini inkar etmə, çünki aşkarlıqda günəş kimi, hətta ondan daha işıqlıdır. O

1 - "Tarixin ən önəmli bölümü ya Qədir hekayəsi", s 67.
2 - "Qədir həmasəsi", "Əşşi’ə vət-təşəyyü’" kitabından nəql edilən, s 288, mərhum Məhəmmədcavad Muğənniyyə.
3 - "Əlqədir" dərgisi, Beyrut çapı, sayı 8, 9, "Əbdul-əziz Qəmari" məqaləsi.
4 - "Mənaqib", ibni Şəhraşub, c 1, s 540.

gündə Əlinin imaməti, cəlaləti və kamalı aşkar olub, qiyamətə qədər davam edəcəkdir.»

“Əbdullah Əlayili” islam dünyasının bacarıqlı ustadı, “Livan” radiosunda (18 zilhiccə, 1380. h) tarixində apardığı danışığında demişdir: «İnnə i’dul-qədiri cuz’un minəl-islam, fəmən ənkərə, ənkərəl-islami bizzat.»

Yəni: Qədir bayramı islamın bir bölümüdür. Bunu inkar edən, islamın əsasını inkar etmişdir.»

Məşhur ədib və alim Məhəmməd Riza Həkimi Əlayilinin sözün təhlil edərək, deyir: Nə üçün Əlayili deyir: «Mən ənkərə, ənkərəl-islami bizzat» çünki Qədir islamın əsas hissələrindəndir. Hər bir təşkilatda rəhbərlik məqamı əsldir.

Bütün hökmlərindən xəbərdar Peyğəmbər kimi rəhbəri olan belə bir təşkilatda, yəni islam təşkilatında rəhbərin canişini hər şeydə onun kimi olmalıdır. Bu özəlliklərin hamısı, yəni elm, təqva, cihad, dözüm, isar və islam tərbiyəti olanlar arasında yalnız Əlidə toplanmışdı. Buna görədir ki, Əbu Bəkr dedi: «Məni azad edin, mən sizin ən yaxşınız deyiləm.»

İkinci xəlifə olan Ömər ibn Xəttab deyərdi: “Əli, xəlafət üçün məndən və Əbu Bəkrdən layiqlidir.»[1]

Beləliklə “Qədir”in inkarı ona görə islamın inkarıdır ki, bu məsələ islam həyatının gələcəyini müəyyən etdi. Yəni islamın bütünlüklə qalması və yaşaması üçün, onun -Peyğəmbər dönəmi kimi- bütün hissələrinə əməl

---

1 - Bu iki xəlifədən bunun kimi sözlər və hətta bundan aşkar, çox nəql edilmişdir. Bunların bir çoxu Əhli-sünnənin mö’təbər kitabları və qaynaqlarında da getmişdir. "Əlqədir", c 1, s 388-389, c 5, s 368. c 7, s 80, 119. və s.

edilməsi üçün, habelə yeni məsələləri, bəzi şəxslərin nəzər və zənni ilə yox, İslam, Qur'an və Peyğəmbər elmi ilə həll edilməsi və Qur'an və vəhy əhkamının dünyada yayılması üçün, islam cəmiyyətinin rəhbəri elə bir kəs olmalıdır ki, Peyğəmbərin yolunu davam etdirsin. O rəhbər başdan-başa, islam, islama əməl etmə və islamın əhkamını yerinə yetirmə simvolu olmalıdır. Belə ki, Müaviyə kimi bir şəxsi islam və Qur'an məmləkətinin böyük bir hissəsinə hakim etməyərək, bir an da bu durumdan razı olmasın; Əbuzəri beytül-malı və xalqı müdafiə etdiyi üçün sürgün etməsin.

Qədir, yəni islam, islama əməl etmə, islamın davamı və onun bütün dünyada yayılması. Başqa sözlə, Qədir İslam "hədd"ləri və "əmr be mə'ruf və nəhy əz münkər"; çünki ilahi hökmlərin davamı iki əmrə bağlıdır. Onları həyata keçirmək və Qur'anın bütün əhkamını dünyada yaymaq deməkdir. Beləliklə, bu hədisin inkarı islamın inkarı deyilmi?[1]

Nəhayət, qədir vilayət bayramı, dinin mükəmməl olması, rəbbin nemətlərinin tamamlanması, islam dininin Allah tərəfindən insanlar üçün bəyənilib seçilməsi bayramıdır.

Qədir insanın imtahan günüdür. Qədir göy əhli arasında "əhdun-mə'hud" və yer əhli arasında "misaqun-mə'xuz" adıyla tanınmaqdadır. Qədir bizə xatırladır ki, imamət və islami hökuməti olmayan din, mükəmməl bir din deyil.

1 - "Qədir həmasəsi"

Qədir, qədirin sahibi olan həzrət Əlinin (ə) nurlu üzünü Peyğəmbərin əlləri üstündə görmək günüdür. Qədir, Əmirəl-mö'minin və digər 11 məsum imam ilə bey'ət etmək günüdür. Qədir, günəşi qaranlıqda qalanlara göstərmək günüdür. İslamın məna tapması gündür. O gün olmasaydı, dindən lazımı qədər faydalanmaq mümkün olmazdı. Bu gün o gündür ki, məsihi olan "Tariq ibn Şəhab", Ömərə dedi: «Əgər "ikmal" ayəsi bizə nazil olsaydı və biz onun hansı gündə baş verdiyini bilsəydik, o günü bayram sanıb şadlıq edərdik.[1]

Həzrət Peyğəmbər (s), «Məhəmməd xanədanı» bayramı haqqında buyurdu:

«Yəumu qədiru xum əfzəlu ə'yadu umməti və huvəl-ləzi əmərəniyəl-lahu tə'ala zikrəhu binəsbi əxi Əliy-yubnu Əbi Talib ələmən lil'umməti yəhtədunə bihi min bə'di...»[2]

Yəni, bu gün, mənim ümmətimin bayramlarının ən fəzilətlisidir. Bu gündə Allah mənə Əli ibn Əbitalibin ümmət üçün nümunə olduğunu və ümmətin məndən sonra onun rəhbərliyi ilə hidayət edilməsini bildirməyə əmr etdi.

İmam Rizadan (ə) rəvayətdir ki buyurdu: «Yəumul-qədiri bəynəl-əzha və yəumul-fitri və yəumul-cum'ə, kəlqəməri bəynul-kəvakib».[3]

---

1 - "Əlqədir", c 1, s 283. "Təfsirul-vusul", s 222. "Səhih Buxari", "Əttəfsir", Maidə surəsi təfsirinin ikinci bölümü.

2 - "Əlqədir", c 1, s 283. "Əmali", Şeyx Səduq, s 76. "Təfsir", Furat ibn İbrahim.

3 - "İqbalul-ə'mal", s 466.

Yəni, Qədir bayramı Qurban, Fitir və Cümə bayramları arasında, ulduzlar arasında işıq saçan ay kimidir.

“Furat ibn İbrahim” öz təfsir kitabında Maidə surəsinin təfsirində yazır: Cə’fər ibn Məhəmməddən, Məhəmməd ibn Hüseyndən, Həsən ibn Əli Seyrəfidən, Məhəmməd Bəzzazdan, Furat ibn Əxfəfdən nəql edir ki, dedi: İmam Sadiqə dedim, sənə fəda olum, müsəlmanlar üçün Fitir, Əzha, Cümə və Ərəfədən fəzilətli bayram varmı? Həzrət buyurdu: Vardır, Allah yanında ən şərəfli, böyük və fəzilətli gün, o gündür ki Allah öz dinini kamilləşdirdi. Bu ayəni öz Peyğəmbərinə nazil etdi: «Əlyəum əkməltu ləkum dinukum və ətməmtu ələykum ne’məti və rəzitu ləkumul- islamə dina» [1] . O hansı gündür, deyə soruşdum.

Həzrət buyurdu: “Bəni-israil” Peyğəmbərlərin, visayət və imaməti, öz canişinlərinə verdikləri günü bayram edərdilər.[2] “Siqətul-islam Məkkini”, Əli ibn İbrahimdən, atasından, Qasım ibn Yəhyadan, Həsən ibn Raşiddən rəvayət edir ki dedi: Həzrətə ərz etdim: Sənə fəda olum, müsəlmanların Fitir və Əzha (qurban) bayramlarından qeyri bayramları varmı? Həzrət buyurdu: Vardır, Əmirəl-mö’minin Əlinin (ə) xalqın rəhbərliyinə seçildiyi gün.[3]

Digər bir rəvayətdə, imam Sadiq (ə) buyurdu: İnnə haza yəumun əzzəməl-lahu hurmətəhu ələl-möminini,

---

1 - Maidə surəsi, ayə 3.
2 - "Əlqədir", c 1, s 284. "Biharul-ənvar", c 1, s 215. "Furat təfsiri", s 12.
3 - "Əlkafi", c 1, s 303. c 20. "Əlqədir", c 1, s 285. "Furu’i kafi", c 2, s 148, 159.

əkmələl- lahu ləhum fihid-dini və tutimmə ələyhumun-ne'mətə və cəddidu ləhum ma əxəzə ələyhum minəl-misaqi vəl- əhdi fil-xəlqil-əvvəl...innəhu yəumu i'du və fərəhu və sururu və səumu şukrən lillahi əzzə və cəllə.

Yəni bu gün (18 zilhiccə) Allah möminlərə hörmətini artırdı. Çünki Allah bu gündə onların dinlərini kəmala yetirdi və verdiyi nemətlərini mükəmməl edərək "ələst"də insanlarla bağladığı əhdi təzələdi. Bu gün bayram, sevinc, şənlik və Allaha verdiyi nemətlərini şükr etmək üçün oruc tutma bayramıdır.[1]

"Şeyx Səduq", «Xisal» adlı kitabında, «Müfəzzəl ibn Ömər»dən rəvayət edir ki: Həzrət imam Sadiqə (ə) dedim: Kəm lilmusliminə i'dun? (müsəlmanların neçə bayramı var?). Həzrət buyurdu: Dörd bayram. Dedim: Fitir, Qurban və Cüməni bilirəm. Buyurdu: Onların ən böyük və şərəflisi 18 zilhiccədir. O gün Peyğəmbər Əlini müsəlmanların rəhbərliyinə seçdiyi gündür.[2]

Əbdullah ibn Cə'fər Himyəri Harun ibn Muslimdən, o da Əbil-Həsən Ləysidən rəvayət edir: İmam Sadiq (ə) öz hüzurunda olan dost və şiələrinə buyurdu: Allahın, din minarələrini aşkar edərək, islamı yüksəldən günü hansı gün olduğunu bilirsiniz? Dedilər: Allah, Peyğəmbər və onun övladı bizdən daha xəbərdardır. Amma o gün Fitir bayramı deyilmi? Buyurdu: Yox. Dedilər: Əzha və Qurban bayramları deyilmi? Buyurdu: Bu iki gün böyük və şərif günlərdən olsalar da, din minarələrini təyin edən gün bu günlərdən

---

1 - "Əliqbal", s 47. "Şeyx Tusi Misbahi", s 513. "Əlqədir", c 1, s 286.
2 - "Əlqədir", c 1, s 286. "Xisal", s 264.

böyük və şərəflidir. O gün zilhiccənin 18-ci günüdür ki Peyğəmbər "Həccətül-vida"dan qayıdırdı. Qədir-xuma yetişən zaman...[1]

Digər bir rəvayətdə, nəql edilmişdir ki, imam Sadiq (ə) Əli ibn Həsən Əbdiyə buyurdular: "Lə'əlləkə təra innəl-lahə əzzə və cəllə xələqə yəumən ə'zəmu minhu la vəl-lahu, la vəl-lahu, la vəl-lahu.»

Yəni: Sən elə güman edirsən ki, Allah bu gündən (18 zilhiccə) böyük bir gün yaratmışdır. Amma Allaha and olsun ki belə deyil (və bunu üç dəfə təkrar etdi).[2]

Həzrət Əli (ə) buyurmuşdur: "İnnə haza yəumun əzimuş-şə'n». Yəni: Bu gün böyük və əzəmətli bir gündür.[3]

İbni Əbbas dedi: Demək hansı gün bu gündən mükəmməldir?[4]

Qədir günü Peyğəmbər (s) elmlərin sirlərinin bilinməsi və ilahi qanunların tanımasının Əli (ə) vasitəsilə mümkün olduğunu bildirən gündür.

Mənafi ibn Məhəmməd ibn Ömər Tusi deyir: İmam Riza (ə) bu günü bayram edərək, bunun digər bayramlardan fəzilətli olduğunu bəyan edərdi.[5]

Məşhur tarixçi Məs'udi (346.m) "Əttənbih vəl-işraf" kitabında yazır: Əlinin övladları və onların dostları bu günü əzizləyərmişlər.[6]

---

1 - "Əlqədir", c 1, s 287.
2 - "Əlqədir", c 1, s 35.
3 - "Biharul-ənvar", c 37, 164.
4 - "Biharul-ənvar", c 37, s 156.
5 - "Əlqədir", c 1, s 287, 289.
6 - "Əlqədir", s 61.

# QƏDİR-XUM BAYRAMININ TARİXİ BARƏSİNDƏ YOL VERİLƏN TƏHRİFLƏR

Yuxarıda göstərilən bütün bu mötəbər mə'lumatlara baxmayaraq, Şafei məzhəbinin alimlərindən olan Şəhabuddin Əhməd Nüveyri özünün "Nəhayətul-ədəb fi fununil-ədəb" [1] və Məqrizi özünün "əl-Xitət" [2] adlı kitabında bu sözlərin təməlsiz bir iddia olduğunu və həmin günün Müizzüd-dövlə Əhməd ibn Buyə tərəfindən bayram halına salındığını bildirmişlər.

Ali-Buyə ilk güclü şiə dövləti olmuş və Müizzüd-dövlə öz dini inamlarına və bu bayramın islami bayram olduğuna əsasən, (Bağdadı fəth etdikdən sonra 334 h.-945 m.) həmin gün şadlıq və bayram edilməsini əmr etmişdir. Şübhə salanlar buna əsasən deyirlər ki, qeyd olunan zamandan öncə bu bayramın olmasına aid heç bir dəlil yoxdur.

Həmdani 352-ci ilin hadisələrini şərh edərkən yazır ki, zil-həccə ayının 18 cümə axşamı, şiələrin Qədir-xum dedikləri gündə onlar bazarda od yandırdılar. Bayram gecələrində olduğu kimi, həmin gecə bazar səhərə qədər açıq qaldı. Çalğıçılar (təbil və şeypur) çalırdılar. Səhər çağı şiələr "məqabiru qüreyş"ə[3] gedib, bayram namazı qıldılar. [4]

İbn Cövzi bu barədə deyir: "Müizzüd-dövlə əmr etdi ki, Qədir-xum bayramında xalq şənlik etsin. Çadır qurub, onları bəzəsinlər."

---

1 - "Əlqədir", c 1, s 177.

2- "Əlqədir", c 2, s 222.

3 - Məqabiru qurəyş, Bağdadın qəbristanıdır. İndi ona "Kazimeyn" ya "Kazimiyyə" deyərlər.

4 - "Təklimə", c 7, s 16.

Şiələr Qədir-xum bayramı gecəsi “Şürtə”də od yandırıb, təbil və şeypur çaldılar. Səhər isə dəvə qurban edib, “Məqabiru qüreyş”ə getdilər. [1]

Lakin, Qədir-xum bayramı Müizzüd-dövlə hökuməti ilə bağlı deyil, o, sadəcə olaraq bunu hökumətinin rəsmi bayramı kimi qeyd etmişdir.

## QƏDİR-XUM - İSLAMİ BAYRAM

Bizcə, Qədir-xum təkcə şiələrin deyil, bütün müsəlmanların bayramıdır. Çünki o, Məhəmməd (s) risalətinin Əli vilayətində davam etməsi deməkdir. Hələ çox qədimdə müsəlmanlar bu məqsədlə keçirilən bayramlarda iştirak etmişlər.

Biz mərhum Kaşiful-citanın dediyi: “Qədir-xum məzhəbi bir bayramdır.”-dediyi sözlərini qəbul etmirik. O, demişdir: “Bizim dörd növ bayramımız var: 1-Fitr və qurban kimi dini bayramlar; 2- Qədir-xum kimi məzhəbi bayramlar; 3-Hər bir ölkənin özünə məxsus olan yerli bayramlar; 4-Bütün dünyaya aid olan bayramlar. Bu bayramların bünövrəsini qoyan insan deyil; məsələn: Novruz bayramı.[2]

Əbu Reyhan Biruninin [3], Səalibi [4], İbn Təlhənin «Mətalibus-suul»[5], İbn Xəlləkanın «Vəfəyatul-əyan»[6] və s. kitablarda gəldiyi kimi, Qədir-xum böyük islami bayramlardandır və İslam dünyasının şərq və qərbində

1 - "Əlmüntəzəm", c 7, s 16.
2 - "Əlqədir", c 1, s 288. "Nəcəfi risaləsi", s 44.
3 - "Əl’asarul-baqiyə", s 334.
4 - "Simarul-qulub", s 511.
5 - s 53, 56.
6 - c 2, s 223, c 1, s 60.

əzizlənmişdir. Bu günün bayram edilməsi Peyğəmbər (s) zamanından başlanmışdır.

Əbu Səid Nişapuri Bərra ibn Azibdən, o, Əhməd ibn Hənbəldən və o da Əbu Səid Xudridən belə nəql edir:

Peyğəmbər (s) Qədir-xum xütbəsindən sonra buyurdu: "Məni təbrik edin, məni təbrik edin! Çünki, Allah məni peyğəmbərliyə, Əhli-beytimi isə canişinliyə seçdi." Bundan sonra Ömər ibn Xəttab Əli (ə) ilə görüşərək dedi: "Təbrik edirəm, ey Əbül-Həsən. Sən mənim və möminlərin mövlası oldun." [1]

Görkəmli alim mərhum Əllamə Əmini də özünün "Əl-Qədir" kitabında, çoxlu hədis kitablarına və tarixi mənbələrə əsaslanaraq, bu bayramın yalnız məzhəbi deyil, ümumi islami bir bayram olduğunu sübut etmişdir.

## QƏDİR-XUM MƏSƏLƏSİNİ RÖVNƏQDƏN SALAN AMİLLƏR

Bu barədə bir neçə amili qeyd etmək olar:

1-Tarix boyu münafiqlər və islam düşmənləri bu hadisənin unudulmasına çalışmışlar. Lakin, Allah əsrlər boyu onun yaşamasını iradə etmişdir; onu müdafiə edənlərin işgəncələr görüb, öldürülmələri hesabına olsa belə.

2-Peyğəmbər (s) tərəfindən Əlinin (ə) bu məqama layiq olduğuna tə'kid göstərilməsi. Cəbrail bu barədə buyurdu: "Məhəmmədin (s) Əli (ə) haqqındakı bu israrını heç zaman görməmişdim. Bu, bir əhddir ki,

1 - "Əliyyun fil-kitabi vəs-sunnə", c 2, s 433.

peyman sındıran kafirlərdən başqa heç kəs onu sındırmaz.”

3-Peyğəmbərin (s) özünü sür’ətlə özünü yol ayrıcında olan Qədir-xuma çatdırıb, dayanmağı əmr etməsi, gedənləri qaytarıb, gələnləri gözləməsi və sonra dəvə yəhərlərindən hazırlanmış minbərə çıxıb, hamının hüzurunda Əli ibn Əbutalibin qolundan tutub “Hər kəsin mövlasıyamsa, Əli də onun mövlasıdır” – deməsi. Peyğəmbər (s) daha sonra Əlinin dostlarına dua və düşmənlərinə nifrin edib, orada olanlardan istədi ki, hadisənin olmayanlara xəbər versinlər.

4- Hadisənin zamanı da onun unudulmamağına yardım etmişdir. İbni Şəhraşub “Mənaqib”də İbn Abbasdan nəql edir ki: «Beş bayram, Qədir-xum günündə toplanmışdır (Cümə bayramı, Qədir bayramı, Yəhud bayramı, Məsih bayramı və Məcuslar bayramı).

5- Əshabın 110 nəfəri[1], Tabilərin 84 nəfəri və 361 nəfər Əhli-sünnə alimlərinin nəqli. Habelə Əllamə Əmini dövründəki 26 nəfərin Qədir hədisinin “Təvatur”unu sübut etməsi haqqında yazdıqları kitabları.

Qədir hədisinin sənədləri, elə bir həddədir ki, məşhur sünni alimi olan Ziyaüddin Muqbili (1108. m) deyir: «Əgər Qədirin baş verməsi bunca sənədlərlə sübut

---

1 - "İbn Məğazi" yazır: Qədir-xum hədisini yüz nəfər məhşur islami şəxsiyyət nəql etmişlər. O cümlədən: "Əşərəyi Mübəşşərə" ( müjdə verilən on kişi). "Məhəmməd Cərir Təbəri" (310.m), öz kitabında yetmişdən artıq "təriq" ilə nəql edilən rəvayəti qeyd etmişdir. "Hafiz ibn Ətədə", bu hədisi, "Əlvilayətu fi turuqi hədisəl-qədir" adlı kitabında 105 təriq ilə nəql etmişdir. Böyük tədqiqatçı, "Ayətullah Seyyid Şərəfüddin Amili" yazır: Qədir hədisi nəqlinin təriqləri, o qədərdir ki, onların hamısının zəbt etməsi mümkün deyil.

olmasa, demək, bunu qəbul etməliyik ki İslamda dəqiq heç bir şey yoxdur.»[1]

6- Qədirin dəvamının digər səbəbi, Qədiri ihtiva edən təməl mövzudur. Çünki əgər ümmətin rəhbəri layiq olmasa, xalqın dini və dünyası fasid olar.

7- Bir çox alimlər Qədir ilə əlaqədar olan mövzuları şərh etmişlər. O cümlədən: Şəhristani, Qumi, Qəzvini, Əmini və «Əlqədiru fit-turasil-ədəbil-islami» kimi qaynaq kitablarda adları gedən çoxlu alimlər və tədqiqatçılar.

8-Qədir macərası, yüzlərlə böyük şairin şerlərində bəyan olunmuşdur.

9-Bu günkü gündə Qədir-xumun əbədi edilməsinə yardım edən, bu mərasimləri gözəl keçirməkdir.

Nəhayət, haqq pərəstişkarları və Peyğəmbərə vəfalı olanlara vacibdir ki, şənlik və şadlıq məclisləri qurub, ondan yaxşıcasına faydalanıb, Qədir məşəlini, azadlıq, insaniyyət və ədalət sevgisi ilə görə döyünən - amma bu hadisənin doğru olduğuna şübhəli olan - ürəklərdə yandırsınlar.

İmam Riza (ə) buyuran kimi, möminlər bu bayramda bir-birini təbrik etməli və belə deməlidirlər: Əlhəmdu lillahil-ləzi cə’ələna minəl-mütəməssikinə bivilayəti Əmirəl-möminin vəl-əimməti ələyhimus-səlam. (“İqbal”, s 464).

«Həmd olsun o Allaha ki, bizi Əmirəl-möminin və digər imamların (ə) vilayətindən yardım istəyənlərdən etmişdir.»

1 - "Qədir həmasəsi", s 24. "Hidayətül-uqul ila qayətis-suul", c 2, s 30.

İmam Sadiq (ə) buyurmuşdur: «Qədir-xum günündə, dini qardaşını gördüyündə, belə söylə:

«Əlhəmdu lillahil-ləzi əkrəmənа bihazəl-yəum, və cə’ələna minəl-möminin bi’əhdihil-ləzi əhədəhu iləyna və misaqəhul-ləzi vasəqna bihi min vilayəti vulati əmrihi vəl-quddami biqistihi və ləm yəc’əlna minəl-cahidinə vəl-mukəzzibinə bi yəumid-din.»

«Həmd olsun o Allaha ki, bu günün vasitəsilə bizi əzizlədi. Və bizi cəza gününün münkirlərindən yox, din rəhbərləri üçün bizdən aldığı əhdə vəfa edənlərdən saydı.»

## PEYĞƏMBƏRİN (S) MÖVLUDU, MÜSƏLMANLARIN BAYRAMI

“Amul-fil” ilinin, rəbiül-əvvəl ayının 18-də, İslam Peyğəmbəri dünyaya gəldi.

Aşağıda gedən kitablarda, o həzrətin mövluduna işarə edilmişdir.

«Əlməvahibul-lədunniyyə», s 27.

«Nəbi sirəsi», Vəhlan, c 1, s 26.

«Hələbi sirəsi», c 1, s 83, 84.

«Ərrəsailu əbkəri», İbn İbad, s 175.

Dünya müsəlmanları, Peyğəmbərin mövlud gününü bayram edərək, təntənəli və əzəmətli mərasimlər keçirərlər.

Həmin gündə, 83 hicri ilinin, rəbiül-əvvəlinin 17-də, İmam Sadiq (ə) da dünyaya gəlmişdir.

## Məb'əs bayramı

Rəcəb ayının 27-si, [1] iman əhlinin rəhbəri, Peyğəmbərlərin sonuncusu olan həzrət Məhəmmədin (s) nübüvvət məqamına seçilməsi bayramıdır. Bu böyük və tarixi gün, müsəlmanlar bayramı olaraq, bütün islam dünyasında qeyd olunur.

## Şə'ban ayının yarısı

Əslən iranlı alim və səyyah olan və 4-cü yüzildə, Beytül-müqəddəs şəhrində yaşayan Məqdisi yazır:

«Şə'ban ayının yarısı, ən önəmli islami bayramlardandır. Bu bayram, Beytül-müqəddəsdə, digər şəhərlərdən təntənəli, yaxşı və gözəl keçirilir...»[2]

8-ci yüzilin məşhur səyyahı olan, İbn Bətutə yazır: «15 şə'ban gecəsi mübarək gecələrdən biridir. Məkkə əhli bu gecəni təvaf, ümrə və namaz ilə keçirərlər. Məscidül-həramda hər qrup bir imamın arxasında toplanaraq, çıraq yandırarlar. Ayın işığı da bu mənzərənin təntənəsini artırır, yer və göy işıqlanır.»[3]

3-cü yüzilin, 255 ya 256-cı ilində həmin gün vilayətin 12-ci ulduzu doğaraq dünyanı öz nuruyla işıqlandırdı, bu gecə və gündüzün mübarəkliyini daha da artırdı.

## İstİfadə etdİyİmİz kİtablar və mənbələr


Ali Buyə, Əli Əsqər Fəqihi, Səba yayımları, Tehran.

Ali Əbitalib Mənaqibi, İbn Şəhraşub, (588. h).

Bağdad tarixi, Xətib Bağdadi, (463. h).


---

1 - Əhli-sünnə, Ramazan ayının, 17, 18 ya 24-cü günlərini və bəzisi, 12 rəbiül-əvvəli, məb'əs bilərlər.

2 - "Əhsənüt-təqasim", s 258.

3 - "İbn Bətütə səfərnaməsi", c 1, s 173.

Biharul-ənvar, Məhəmməd Baqir Məclisi, (1110. h).
Buluğul-ərəb fi əhvalil-ərəb, Alusi Bağdadi, (1342. h).
Cəşnlər mahnısı, Məhəmməd Riza Həkimi
Cümə sünnətləri, Fəqih Əhməd Abadi, (1301.h).
Də'aimül-islam, Əbü Hənifə Məğribi, (363.h).
Elm nuru dərgisi.
Əhsənüt-təqasim, Əlburhan, Bəhrani.
Əl'asarul-baqiyə, Əbüreyhan Birüni, (440. h), Əkbər danasirişt tərcüməsi.
Əl'ənvarul-qudsiyyə, Məhəmməd Hüseyn Qərəvi İsfəhani, (1361. h).
Əliyyün fil-kitabi vəl-sünnə, Hüseyn Şakiri.
Əlkafi, Məhəmməd ibn Yəqub Küleyni, (328. h).
Əlməvasim vəl-mərasim, Seyyid Cəfər Amili, (1364. h).
Əlmüntəzəm fi tarixil-ümməmi vəl-müluk, ibni Cuzi, (597. h).
Əlmüraciat, Seyyid Şərəfüddin Amili.
Əlqədir, Əbdülhüseyn Əmini, (1390. h), Daril-kutubil-islamiyyə yayımları.
Əmali, Şeyx Səduq, (381. h).
Ənniruzu fi məsadiril-fiqh vəl-hədis, qum, elmiyyə hövzəsi "möcəm fiqhi" mərkəzi.
Əttənbih vəl-işraf, Əli ibn Hüseyn Məs'udi, (345. h).
Furat ibn Kufi təfsiri, Furat ibn İbrahim, (ölüm: 4-cü yüzil əvvəlləri).
İndiki İranda, əski törən və cəşnlər, Mamud Ruhul-əmini, agah yayımları, Tehran.
İqbalul-ə'mal, Seyyid ibn Tavus, (664. h).
Kəvir, Əli Şəriti.

Mətalibus-suul, İbni Təlhə, (654. h).
Misbahul-mütəhəccid, tusi, (460. h).
Mizanul-hikmə, Məhəmməd Məhəmmədi Reyşəhri.
Nəhcül-bəlağə, toplayan: Şərif Rəzi.
Novruz, Seyyid Məhəmməd Əli Milani, Xorasan yayımları.
Novruz, tarix və dində, Seyyid Əbdur-riza Şəhristani.
Novruznamə, Ömər Xəyyama Mənsub, Təhüri yayımları, 1357.
Novruzun tarixi və qaynaqları, Pərviz Əzkayi.
Qani' divanı, Müdərrisi.
Qədir bayramı, Məhəmməd Cəvad Mərifət.
Qədir həmasəsi, Məhəmməd Riza Həkimi, islam kültürü yayımları dəftəri, Tehran.
Qur'ani-kərim
Şərəfül-mustafa, Hafiz Xərguşi, (496. h).
Simarul-qulub fil-muzafi vəl-mənsub, Məhəmməd Sə'alibi Nişapuri, (429. h).
Su bayramları, Haşim Rəzi, Bəhcət yayımları, Tehran.
Təbəri tarixi, Məhəmməd Cərir Təbəri, əsatir yayımları.
Təqvim və iranlıların milli bayramları, zəbihüllah səfa.
Vəfiyyatul-ə'yan, İbni Xəlləkan, (681. h).
Yəhud və məsihiyyət dinləri təhəvvülləri, Yusif Yəzayi, Ətayi yayımları, Tehran.
Zeynül-əxbar, Əbdülhəy Gərdizi, kitab dünyası yayımları.